

**Şeir sözün qüdrətindən yaranır. Odur ki, həssas oxucu qəlbini sehrləyir, əhval-ruhiyyəsini gözəlləşdirir. Bu mənada, poeziyanı həyatın müqəddəslik nəğməsi adlandıranlar qətiyyən yanılmırlar. Unutmaq olmaz ki, bu nəğməni sönük ilhamla, soyuq ürəklə oxumaq günahdır. Oxusan da o, bir ev, bir ailə çərçivəsindən kənara çıxası deyil. Təbii ki, bu cür nümunələri jurnal səhifəsinə çıxarmaq da mümkünsüzdür.**

**Diqqətinizə verdiyimiz şeirlər isə bizi qane etdi. Redaksiyamızın qapılarını taybatay açıb "Sözlü- sehirli dünya" ədəbi məclisinin üzvlərinə "Xoş gəlmisiniz!" deməyimiz də bu ovqatdan xəbər verir...**

**Baş redaktordan**

# El sevgisini qazananlar

Yaşadığımız dünya özü qədər sirli-sehirlidir. İnsanlar əsrlər boyu bu sirləri açmağa çalışıblar. Lakin hələ də dünyada açılmayan sirlər çoxdur. Bu sirləri öyrənmək üçün hər birimiz ünsiyyətdə olduğumuz insanlarla danışır, əlaqə yaradır, məlumat toplayırıq. Sirli dünya qədər insan özü də sirli bir aləmdir. Bütün sirlərin açarı sözdür. Sözün açarı isə Tanrıdır. Deməli, bütün sirlərin açarı Ulu Yaradandır. Allah- Təala sözlə məşğul olan insanları- şairləri, yazıçıları sevir, onlara öz lütfünü göstərir. Çox təəssüflər olsun ki, yer üzündə belə insanlar azlıq təşkil edir. Belə insanlar hamının doğması, əzizi olaraq sevilirlər. Onların el-oba arasında nüfuzu, hörməti, özünəməxsus yeri olur. El sevgisini qazananlar insanların qəlbində əbədiyaşarlığa nail olurlar. Əbədiyaşarlıq adını qazananlar öz əməllərilə, yazıb-yaratdıqları əsərlərilə xalqın yaddaşında qalırlar. Xalqın yaddaşında qalan insanlar- Sözün açarının sahibi Ulu Tanrıdan güc- qüvvət alır, yaddaqalan əsərlər yazıb- yaradırlar.

2003-cü ildə Beyləqanda fəaliyyətə başlayan "Sözlü- sehirli dünya" ədəbi məclisinin üzvləri də ulu yaradandan güc alaraq yazıb- yaratdıqları əsərlərilə insanların ürəklərinə yol tapmışdır. Hazırda "Sözlü- sehirli dünya" ədəbi məclisinin 300-dən çox üzvü vardır. 2009-cu ilə qədər "Sözlü- sehirli dünya" almanaxının səkkiz cildi işıq üzü görmüşdür.

"Sözlü- sehirli dünya" ədəbi məclisinin üzvlərindən tanınmış şairlərimizdən Elman İsrafiloğlu, Gülxas Səmədli, Rəşad Bəydəmirli, Əlövsət Murad, Şərafət Dağıstanlı, Telman Dəmirli, Firudin Süleymanoğlu, Nurəddin Orucoğlu ilə yanaşı istedadlı yazarlardan Qəni Qəmli, Səxafət Sahil, İsa Zeynaloğlu, Azad Əbdürəhmanov (Gürcüstan), Ramil Hüseynov, Elman Nigaran, Araz Baxşəliyev, Razi Quliyev və başqaları oxucuların rəğbətini qazanmışlar.

Hər bir şairin ürək səsi, pıçıltısı, sirli dünyamıza münasibəti yazdıqları əsərlərdə özünü bariz şəkildə göstərir. Zaman hər şeyi öz süzgəcindən keçirir. Ona görə də çalışıb yaxşı əsərlər yaratmaq, xalq sevgisini qazanmaq, zamanın yaddaşında əbədiyaşar olmaq hər bir yazarımızın ən ümdə vəzifəsi olmalıdır. Bu çətin və şərəfli yolda "Sözlü-sehirli dünya" ədəbi məclisinin üzvlərinə uğurlar arzulayıram.

● **Elman İSRAFİLOĞLU,**
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Quruluş" və "Mil" qəzetlərinin baş redaktoru***